Müstəqil ictimai-siyasi, publisistik qəzet № 42 (1122) 19 oktyabr 2022-ci il Kredo. S.1. Qəzet 1999-cu ilin oktyabrından çıxır

# QƏŞƏM İSABƏYLİ - 75

*Sözün mahiyyətini öyrənmək üçün müxtəlif çalarlarda işləmək bacarığı Qəşəm İsabəyli yaradıcılığı üçün xarakterik haldır. Məsələn, bir şeirində o, çörəyin dəyərini, onun ağır zəhmət hesabına başa gəldiyini anlatmaq üçün bu sözü "torpağı çöyürüb əkmək" kimi anladır. ...Qəşəm İsabəylinin yaratdığı obrazlar hər şeyi bilməyə çalışan uşaqlardır. Onun poeziyası formasına görə yox, məzmununa görə modern ədəbiyyat nümunəsi hesab oluna bilər. Məsələn, 10 illərlə ədəbi düşüncədə "təklik faciədir" fəlsəfəsini tam alt-üst edən "Nənəm təkdi" poeması bu mövzuya modern yanaşmağın nümunəsidir. Bu əsər sanki "təklik faciə deyil, insanın düşdüyü mühitdə özünü yenidən kəşf etmək üçün bir fürsətdir" deyir.*

*Zahid XƏLİL*

*...Qəşəm şair kimi ilk kövrək addımlarını mənim gözümün qabağında atıb. Elə ilk poetik tanışlıqdan yadımda qalan və sonralar unutmaq istəsəm də, unuda bilmədiyim "Göydə quşdu, yerdə daşdı torağaylar" misraları da Qəşəmin obrazlı düşüncə tərzinə malik olduğundan xəbər verirdi. Həm də bu obrazlı düşüncə tərzinin poetik məziyyətləri ilk baxışdaca diqqəti çəkirdi: Fikrin uyarlı, yerində işlədilən sözlərlə əmin-arxayın deyimi. Sözü necə deyərlər, əyib bükmək istədiyin axara salmaq bacarığı.*

*Məmməd İSMAYIL*



## SÖZÜN XAN ÇİNARI

*Yazısını, yaradıcılığını, şəxsiyyətini sevdiyim adamlardan yazmağa qorxuram.*

*Müəllifdən.*

*Görkəmli sənətkarımız Qəşəm İsabəylinin "Əsərləri toplusu"nun (uşaqlar və yeniyetmələr üçün, 2 cilddə) I cildi haqqında qısa qeydlər*

Mən Qəşəm İsabəylinin zəngin mənəvi aləmində, şəxsiyyət bütövlüyündə, qürurlu görünüşündə həmişə bir çinarlıq görürəm. Amma əgər Azərbaycan ədəbiyyatını da sözün əzəmətində qavrayırıqsa, elə Qəşəmi də sözün Xan çinarı kimi qəbul etməyim təbiidir.

Qəşəmi yaxından tanıyanlar, onun yaradıcılığına bələd olanlar üçün də nə şəxsiyyətinin çinarlığı, nə də sözün Xan çinarı olmağı mübahisəli görünməz.

Qəşəm İsabəyli 14 avqust 1948-ci ildə doğulub. Yəni 3 ay olmaz ki, 75 yaşına keçib. İnsafən, ədəbi mühitdə sözü ilə görünən, sənəti ilə təqdir olunan yaradıcılığının əhatə dairəsinə görə müasirlərimiz arasında arayıb-axtaracağımız klassiklərdən biri kimi tanınır. Yarım əsrdən çox yazıb-yaratdıqları ilə zəngin bir aləm yaradıb.

Çoxcəhətli ədəbi fəaliyyətin bəhrəsi olaraq onlarca kitabların, dünyanın müxtəlif dillərinə tərcümə olunmuş çoxlu sayda əsərlərin müəllifidir. Qəşəm İsabəylinin yaradıcılığını ötəri bir nəzərlə yaddaşımızdan keçirsək, onun mövzu əhatəsini müəyyən janrlarda ifadə olunan yaradıcılığının məzmununu üç istiqamətdə görmək olar.

İctimai-fəlsəfi məzmunlu poeziyası, uşaqlar və yeniyetmələr üçün yaradıcılıq örnəkləri, nəsri və ədəbi publisistikası. Bu bölgünün özü də şərtidir. Ədəbi yaradıcılıq sirlərinə vaqif olan Qəşəm İsabəyli ssenaristdir, naşirdir, ciddi və məsuliyyətli redaktordur və s.

Mənə elə gəlir ki, Qəşəm İsabəyli ictimai-fəlsəfi məzmunlu poeziyası ilə nə qədər görkəmli sənətkardırsa, uşaq poeziyasının da qüdrətli sütunlarından biridir.

Sənətkarın sözlə işləmə, sözün ən müxtəlif çalarlarına baş vurub mətnə ən uyarlısını gətirmək baxımından qeyri-adi dərəcədə ustadlıq gücündədir. Görkəmli şair Məmməd İsmayıl onun sözlə işləmə imkanlarını nəzərdən keçirərkən yazır:

Şübhəsiz, bu cümlələrin mahiyyətində boy verən obraz elə Qəşəm İsabəylinin bizə tanış olan, bizə doğma olan sənətkar obrazıdır.

# SÖZÜN XAN ÇİNARI



*(Əvvəli 1-ci səhifədə)*

Məmməd İsmayıl şairin "Əkil-bəkil" poemasını kifayət qədər diqqətlə izləyir. Şairin özünüifadə imkanlarını qeyri-adi dərəcədə təbii ifadələrinə görə dəyərləndirir. Bir daha təkrar eləməyə dəyər ki, Qəşəm İsabəyli Məmməd İsmayıl demişkən, çılğın düşüncələrə boyuna uyğun forma və don biçə bilir. Qəşəm dilin bütün xəzinəsinə 7 qat dərinliyinəcən vaqifdir.

Toplunun müxtəlif bölmələrini nəzərdən keçirdikcə təbiət və uşaq obrazlarının bir-birinə qovuşmuş mənzərələri ilə qarşılaşırıq.

Küləyin səsi ayrıca bir söz kimi necə görünürsə, uşağın küləyə diqqəti də eləcə dilə gəlir. Qəşəm İsabəyli sözü nənəsinin xalçaya gül əkməsi kimi ləkləyə bilir. Uşaq düşüncəsinə görə küləyin vıyıltısı bir tənhalıq, havadarlıq harayını xatırladır. İkicə misranın ("Qapını küləkdi döyən, Çöldə qalıb təkdi deyən?") içindəki duyğu quş kimi uçub oxucunun yaddaşına qonur. Və istər-istəməz belə bir əks-səda doğurur. Bəlkə həqiqətən təkdi külək, bəlkə ona kömək lazımdır, bəlkə qapını elə bu kömək üçün döyür?

Və elə buradaca qeyd etmək yerinə düşər ki, artıq külək canlanan, düşünən varlığa çevrilmiş olur Qəşəm İsabəylinin ifadə tərzində. Onun uşaqlar üçün yazılmış ikilikləri birinci sinif şagirdlərinin "Əlifba" kitabında oxuduğumuz "Tutu topu tutdu" mətnindən qat-qat dəyərlidir. Bəlkə də Qəşəm İsabəylinin uşaqlar üçün yazılmış ikiliklərini elə bütövlükdə əlifba kimi öyrənmək daha çox faydalı olardı. "Qırxayaq - ayağı qırx, qırxbuğum - qulağı qırx", yaxud payız haqqında- "Ağaclara bax, yeldən uçunur, Buludlara bax, yağış xurcunu". Daha birini də göstərək: "Al günəş batdı getdi, Ayı oyatdı getdi". Yüzlərcə bu cür ikiliklər, kiçik mətnlər sözün obrazlı ifadəsinin nadir nümunələri olduğu kimi məzmun və məna baxımından da əvəzsizdir. Uşaq istər-istəməz Günəşin batmasını gözləyir ki, görsün Ay oyanır, ya yox. Və həqiqi təbiət hadisəsi ilə qarşılaşır. Əgər belə demək, mümkünsə, astronomiya haqqında ilkin məlumat alır.

Qəşəm İsabəylinin uşaq şeirlərinin başlıqları elə lüğət tərkibidir. Bu mətnlərdən uşaq dünyasına əlvanlıq gətirmək üçün istifadə etməyən pedaqoq, metodist əslində kordur.




Digər bölmələri də xatırlatmaq olar. Əslində bu bölmələr hər biri Qəşəm İsabəylinin uşaqlar üçün, yeniyetmələr üçün yazılmış kitablardır. Q.İsabəylinin "Təbiət gündəliyi", "Vətən" şeirlər silsiləsi də sözün həqiqi mənasında görkəzmə mətnlərdir.

Düzdür, deyirəm ki, bu şeirlər hamısı uşaqlar, yeniyetmələr üçündür. Amma elə həm də böyüklər üçündür. Hətta görkəmli şairlərimizin yaradıcılığında söz kasadlığını müşahidə edirik və bunu dana bilmərik.

Kimin ki, söz ehtiyatı tükənib Qəşəm İsabəylinin söz xəzinəsinə baş vursun. Kitabda bir bölmə də var; "Gəldim Xəlsə kəndinə". Bu, Qəşəm İsabəyliyə doğma kənddir. Təkcə 5-10 şeirdən ibarət olan bu bölmənin özü elə Xəlsə üçün əbədiyaşarı qranit lövhədir.

Türklər əbədiyaşarılığını arzuladıqları mətnləri qranit lövhələrə yazırdılar. "Şamaxı - şam nağılı" poeması isə tarixin nağıllaşması, nağılın tarixiləşməsidir.

"Şamaxı - şam nağılı" poeması zəngin söz ehtiyatı, nadir tarixi nüansları ilə möhtəşəm əsərdir. Bu əsərdə yazılanların ayrı-ayrı məqamları elə ilk baxışdanca hiss olunur ki, hər ifadə, hər hissə, hər parça Şamaxının sirlərlə dolu keçmişinə bir cığır açır, yol açır.

Qəşəm İsabəylinin söz oyununun ustadıdır. Söz onun qələmində (bəlkə dilində) ustad çörəkçi əlindəki xəmirdir. Duzu, acıtması yerli-yerində, yeyəndə dadı damaqda qalan, ətrini hələ çatmamış duyduğun halal çörək Qəşəm İsabəyli üçün söz mənəviyyat təamıdır. Onu necə istəyir, eləcə də yoğura bilir. Şamaxının yurd olmasındakı məzmun görün adına necə sığınır:

Bir şamdan alışar
Minlərlə şam axı!
Beləcə doğuldu,
Beləcə yurd oldu,
Beləcə ad oldu,
Beləcə yurd oldu
Şamaxı!

Mən yuxarıda epiqrafa sığdırdığım mətnə bir daha diqqəti yönəldərdim. Bəli, həqiqətən, bütün əzəmətini daxili məzmununu görə bildiyin, duyduğun insanı (yazıçını, şairi) sözə gətirmək xüsusi məsuliyyət tələb edir. Hələ üstəlik beləsi sənin haqqında qeyri-adi hökmü ifadə edən düşüncədədirsə. Qəşəm İsabəyli 702 səhifəlik "Əsərləri toplusu"nun birinci cildinin titul səhifəsində ünvanıma avtoqraf yazıb:

Bu inamın qabağında necə qorxmayasan, necə dizin əsməyə? Dostum Qulu Məhərrəmli də təqribən belə bir ifadə işlətmişdi:

Ancaq mən bu qənaətdəyəm; əziz dostlarımın hər biri dövrün mahiyyətini özünə çəkmiş klassiklərdir.

"Əkil-bəkil" poeması haqqında isə Məmməd İsmayıl daha geniş danışır. Tariximizin adlarda ifadə olunan qanlı səhnələri gözlərimizin önündən birər-birər keçir. Sultan Səlimin, Şah İsmayıl Xətainin, uşaqlara doğma ruhda təqdim olunan Bəkilin obrazlarını görmək bəs edir ki, Qəşəm İsabəylinin nəzərində şəxsiyyət olan uşaq aləmi üçün əsil qaraçuxa olduğunu bütün aydınlığı ilə dərk edək.

Bu möhtəşəm kitab üçün görkəmli rəssam Ədalət Həsən və Həsənağa Həsən çox dəyərli bədii illüstrasiyalar yaradıblar. Təkcə elə kitabın üz qabığına baxıb Qəşəmin dünyasına səyahət etmək olar.

Qəşəm bütün varlığı ilə həyatı və təbiəti sevir. Onu bütöv görür.

Qəşəm İsabəyli üçün hər söz canlı bir varlıqdır. Varlıq həyatın görünən və görünməyən tərəfidir.

Sözlər haradan belə uçub gəlir Qəşəm İsabəylinin dünyasına, özü də axın-axın gəlir. Ardı-arası kəsilmədən gəlir. Axı dedik ki, sözlər də canlıdır və onlar hiss edirlər ki, Qəşəm İsabəyli onlara qucaq açır, sevgi ilə dolu qucaq.

Qəşəm İsabəylinin yaradıcılığının ən müxtəlif qanadları ecazkar səhifələrlə doludur. Amma həmişə istəmişəm ki, onun ictimai-fəlsəfi məzmunlu yaradıcılığını tədqiq edim.

Ən böyük filosoflar da uşaq olublar. Bəlkə elə onun uşaqlar üçün yazdıqlarından başlamağın da bir tale qismətidir.

Deyəsən, məntiqə uyğun gəlir.

Ə.R Xələfli